

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 182 (21.592)

*29 sentyabr 2016-cı il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanı qəbul edib.

Azərbaycan-Bolqarıstan ikitərəfli əlaqələrinin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın dostluq münasibətlərinə əsaslandığını bildirib. Bolqarıstanın vitse-prezidenti Marqarita Popovanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin müzakirəsi üçün yaxşı imkan yaratdığını qeyd edən Prezident İlham Əliyev qonağın V Bakı Beynəlxalq Humanitar Forumunun işində iştirakının önəmini vurğulayıb. İki ölkə arasında humanitar sahədə əməkdaşlığın da uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı bu yaxınlarda Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə mühüm bir tədbirin keçirildiyini qeyd edərək Bolqarıstan hökuməti, Baş naziri və digər rəsmi şəxslər tərəfindən göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Prezident İlham Əliyev bu tədbirin ölkələrimiz arasında mövcud olan sıx əlaqələrin göstəricisi olduğunu və yaxın tərəfdaşlığı davam etdirmək niyyətini nümayiş etdirdiyini vurğulayıb.

Bolqarıstanın vitse-prezidenti Marqarita Popova Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan hökumətinin təşkilatçılığı ilə keçirilən V Bakı Beynəlxalq Humanitar Forumuna dəvətə görə minnətdarlığını ifadə edərək səfərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirib. Qonaq indiki dövrdə beynəlxalq aləmdə mövcud olan gərginlik fonunda Azərbaycanda belə bir tədbirin keçirilməsinin əhəmiyyətini qeyd edib. Ölkəmizin artıq bir neçə ildir ki, təşkil etdiyi Ümumdünya Mədəniyyətlərarası Forum, Humanitar Forum kimi beynəlxalq tədbirlərin böyük önəm daşıdığını deyən Bolqarıstanın vitse-prezidenti bu tədbirlərin getdikcə daha çox siyasi əhəmiyyət qazandığını vurğulayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Tacikistan Respublikası Ali Məclisinin nümayəndələr palatasının sədri Şukurcon Zuxurovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

# Babək rayonunun Mərzə kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası ölkəmizə tərəqqi, xalqımıza firavanlıq və yüksək rifah bəxş etmişdir. Bu gün ulu öndərin yolunun davam etdirilməsinin nəticəsidir ki, muxtar respublikamızda geniş quruculuq işləri aparılır, yaşayış məntəqələrinin siması dəyişir, müasir kənd infrastrukturu yaradılır.

Yeni sosial obyektlərin inşası və əhalinin rahat yaşayışının təmin olunması Naxçıvan Muxtar Respublikası kəndlərinin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Sentyabrın 28-də Babək rayonunun Mərzə kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Kənd yolu yenidən qurulmuşdur

Sentyabrın 28-də Mərzə kənd avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolun açılışını bildirən lenti kəsmiş və sakinləri təbrik etmişdir.

Məlumat verilmişdir ki, 2,9 kilometr uzunluğundakı kənddaxili avtomobil yolları yenidən qurulmuş, yol yatağı genişləndirilərək asfalt örtük salınmışdır. Tikinti işləri aparılarkən 1300 metr yola çınqıl qatı verilmiş, yolun üzərində 75 su keçidi qoyulmuş, yağış sularının axıdılması üçün 1250 metr beton kanal çəkilmişdir.



## Mərzə kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir

Sentyabrın 28-də Mərzə kənd tam orta məktəbinin yeni binasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək demişdir ki, muxtar respublikanın şəhər, qəsəbə və kəndləri yenidən qurularaq müasir görkəm alır. Aparılan genişmiqyaslı tikinti-quruculuq işlərindən Babək rayonuna da pay düşmüşdür. Bu ilin ötən dövründə rayonun Xəlilli və Yarımca kəndlərində yeni sosial obyektlər istifadəyə verilmişdir. Hacıvar və Badaşqan kəndlərində isə quruculuq işləri davam etdirilir. Bu gün Mərzə kəndi də rayonun kompleks abadlaşan kəndlərinin sırasına qoşulmuşdur. Bundan başqa, rayonda mənzillərin içməli su, torpaq sahələrinin isə suvarma su təminatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Rayon icra başçısı həyata keçirilən tədbirlərə görə sakinlər adından minnətdarlıq etmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Mərzə kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Təhsil sisteminin inkişafında orta məktəblərə qayğı xüsusi yer tutmalıdır"***, – fikrini xatırladaraq demişdir: Məktəb tikintisi gələcəyimiz olan gənclərin yetişdirilməsinə xidmət edir. Ona görə də ölkəmizdə ulu öndərimizin yolu uğurla davam etdirilir, hər il yeni məktəb binaları tikilir və müasir tədris avadanlıqları ilə təchiz olunur. Ölkəmizdə tikilən müasir məktəblərdən biri də bu gün Mərzə kəndində istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Mərzə kəndi muxtar respublikamızın abad yaşayış məntəqəsinə çevrilib. Kənddə məktəb binası, yol, kənd və xidmət mərkəzləri tikilmiş, abadlıq işləri aparılmışdır. Həyata keçirilən bu tədbirlər sakinlərin rahat yaşayışına və gənclərin yaxşı təhsil almasına xidmət edir. Məktəb tikintisinə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu gün məktəbdə təhsil alan gənclər gələcəkdə ölkəmizdə müxtəlif sahələrdə çalışacaq, dövlətimizin möhkəmlənməsinə və inkişafına öz töhfələrini verəcəklər. Ona görə də müəllimlər gənclərlə işə xüsusi diqqət yetirməli, onların vətənpərvər və təhsilli böyüməsi qayğısına qalmalıdırlar. Bu işlərin həyata keçirilməsi üçün lazımi şərait yaradılmış, məktəb tədrisin müasir tələbləri səviyyəsində qurulmuşdur.

Mərzə kənd tam orta məktəbinin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə nizam-intizam var, müəllim-şagird münasibətləri qarşılıqlı hörmət və tələbkarlıq əsasında qurulub. Yeni məktəb binası gələcəkdə nailiyyətlərin daha da artırılmasına imkan verəcəkdir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, nizam-intizama əməl edilməli, müəllimlər daim öz üzərlərində işləməli, gənclərin gələcəkdə peşə sahibi olması üçün çalışmalı, yaxşı təhsil verməlidirlər.

Ali Məclisin Sədri qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür etmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Bildirilmişdir ki, 270 şagird yerlik 3 mərtəbəli məktəbdə 3-ü elektron lövhəli olmaqla 15 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kompüter otağı, müəllimlər otağı, şahmat otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Məktəbdə 19 kompüter quraşdırılmış və internetə qoşulmuşdur.

Muxtar respublikamızın ümumtəhsil məktəblərində kitabxana işinin müasir standartlar səviyyəsində qurulması diqqət mərkəzində saxlanılır, kitabxana fondları dərslik və bədii ədəbiyyatlarla zənginləşdirilir. Mərzə kənd tam orta məktəbinin

*Ardı 2-ci səhifədə*





kitabxanasında da 1617 dərslik və 1381 bədii ədəbiyyat vardır.

Elektron lövhəli sinifdə Məzrə kənd tam orta məktəbi ilə "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi arasında əlaqə yaradılmış, muxtar respublikanın 206 təhsil müəssisəsinin iştirakı ilə distant dərs keçirilmişdir.

Kimya, biologiya və fizika laboratoriyalarında lazımi təcrübə avadanlıqları və elektron lövhə quraşdırılmış, hərbi kabinədə tədris proqramına uyğun stendlər qoyulmuşdur.

Ali Məclisin Sədri kimya, biologiya, fizika, riyaziyyat və tarix fənlərinin tədrisində elektron dərsliklərdən istifadənin vacibliyini bildirmiş, tədrisin təşkili ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Baxış zamanı qeyd olunmuşdur ki, 2016-2017-ci tədris ilində Məzrə kənd tam orta məktəbində birinci sinfə 15 şagird qəbul olunmuşdur.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri Məzrə kənd tam orta məktəbində tədrisin düzgün qurulduğunu, ali məktəblərə qəbulda məktəbin yaxşı nəticələr göstərdiyini qeyd etmiş, nailiyyətlərin daha da artırılmasının vacibliyini bildirmişdir.

Müəllim İlahə Səfərova muxtar respublikada təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə pedaqoji kollektiv adından minnətdarlıq etmişdir.



## Məzrə Kənd Mərkəzinin açılışı olmuşdur






Sentyabrın 28-də Məzrə Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, mərkəzdə rabitə evi, polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, kitabxana, statistika otağı, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi və 44 yerlik iclas zalı vardır.

Baytarlıq məntəqəsində soyuducu və lazımi dərman vasitələri qoyulmuş, xidmətin təşkili üçün bütün şərait yaradılmışdır.

Kənd kitabxanası da zənginləşdirilmiş, oxucuların istifadəsinə 6487 kitab verilmişdir. Rabitə evində quraşdırılan 320 yerlik müasir ATS, çəkilən fiberoptik xətt kənddə dayanıqlı telefon və sürətli internet xidmətinin göstərilməsinə imkan verir. Hazırda Məzrə kəndində 28 internet istifadəçisi vardır.

Feldşer-mama məntəqəsi üçün 4 iş otağı ayrılmış, soyuducu, tibbi avadanlıqlar və dərman vasitələri qoyulmuşdur. Burada əhaliyə lazımi tibbi xidmət göstəriləcəkdir.

Ali Məclisin Sədri tibbi xidmətin təşkilində səhiyyə maarifi işinə xüsusi diqqət yetirilməsinin vacibliyini bildirmiş, bununla bağlı tapşırıq və tövsiyələrini vermişdir.

## Məzrədə xidmət mərkəzi fəaliyyətə başlamışdır






Məzrə kəndində müasir xidmət mərkəzinin yaradılması sakinlərin rahatlığına imkan verəcəkdir.

Sentyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını bildirən lenti kəsmişdir.

Xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazası fəaliyyət göstərir. Mərkəzdə 4 nəfər işlə təmin olunmuşdur.

Xidmət mərkəzi ilə tanışlıqdan sonra Ali Məclisin Sədri sakinlərlə görüşmüşdür.

Kənd sakini Vaqif İsayev minnətdarlıq edərək demişdir: Məzrə kəndi tamamilə abadlaşıb. Kənd yolu, məktəb binası, kənd və xidmət mərkəzləri sakinlərin rahatlığını təmin edir. İnsanlar rahat yaşayır. Vaxtilə Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi kəndin suvarma su problemini həll etmiş,

*Ardı 3-cü səhifədə*

əkin sahələri xeyli genişlənmişdir. Bu gün kənddə əhalinin içməli su təminatı da yaxşılaşdırılmışdır. Bir sözlə, kənddə şəhər rahatlığı yaradılmışdır. Bu işlər bizi sevindirir, torpağa daha sıx bağlayır. Daim dövlətimizin yanındayıq. Ölkəmizdə həyata keçirilən siyasi xətti dəstəkləyirik. Çalışacağıq ki, bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edək, ölkəmizin inkişafında payımız olsun.

Ali Məclisin Sədri demişdir ki, Məzrə kəndində həyata keçirilən quruculuq işləri insanların rahat yaşamasına xidmət edir. Vaxtilə kənddə bir çox sahədə problemlər mövcud idi. Lakin bu gün Məzrə müasir Azərbaycan kəndinə nümunədir. Kənddə bütün sosial problemlər həll edilmiş, yeni yol, məktəb binası, kənd mərkəzi, feldşer-mama məntəqəsi, xidmət mərkəzi istifadəyə verilmiş, müasir rabitə sistemi qurulmuş, sürətli internetdən istifadə imkanları yaradılmışdır. Məzrə kəndində əkinçiliyin və heyvandarlığın inkişafı üçün də lazımi şərait yaradılmışdır. Dövlətimiz tərəfindən bu sahə ilə məşğul olanlara lazımi qayğı göstərilir. Kəndlərdə həyata keçirilən tədbirlər dövlətimizin öz vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir. Sakinlər bu qayğıdan səmərəli istifadə etməli, tikilənlər, qurulanlar qorunub saxlanılmalı, məskunlaşma artmalıdır.

* * *

Məzrə kəndində abadlıq işləri də görülmüşdür. Kəndin rabitə, elektrik, qaz və su sistemləri yenidən qurulmuş, 2 min metrdən artıq rabitə və 1850 metrlik elektrik xətti çəkilmiş, qaz və su xətlərində təmir-bərpa işləri aparılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# Batabata gəlmişəm

## Altıncı yazı



***Axşam sürücüdən ayrılanda vədələşdim ki, səhər erkəndən gəlsin. Çünki bu, Naxçıvanda olacağım ikinci və sonuncu gün idi. Ona görə hələ getməli, görməli yerlərin siyahısını gözlərim önünə gətirib vaxtı elə qurmağa çalışırdım ki, istəyim havada qalmasın. Sağ olsun, sürücü də məni anladı və artıq səhər $8^{30}$-da o, "Təbriz" otelinin qarşısında bizi gözləyirdi.***

Səhər çayını yolüstü bir yerdə içmək arzusuyla maşına əyləşirik. Artıq şəhərin müəyyən hissəsini tanıyıram. Dairəvi yol ayrıcına çatanda özüm sürücüyə sağa doğru hərəkət etməyi məsləhət görürəm:

– Müəllim, deyəsən artıq Naxçıvanı tanımağa başlayırsınız.

Mən də gülümsəyirəm və əlavə edirəm ki, yolun sol istiqaməti Şərur tərəfə gedir. Digər tərəfdən yol ayrıcındakı işarədə də Şahbuz yazılıb. Bunun özü də bir xatırlatmadı.

...Bəli, maşınımız gözəl bir yolla üzü dağlara tərəf gedir. Yolun rahatlığı və mənzərəsi məni, demək olar ki, yenə öz qoynuna alıb. Və sürücünün susub heç bir şərh verməməsi mənə əlavə bir imkan yaradıb. Hər şeyə acgözlüklə baxıram. Birdən diqqətimi yamaclıqda salınmış bir bağ çəkir. Ağaclar dəmyə bir şəraitdə elə səliqə ilə əkilib ki, göz çəkmək olmur. Öz-özümə düşünürəm ki, onları görəsən necə suvarırlar? Bu vaxt sürücü köməyimə çatır. Ürəyimi oxuyurmuş kimi deyir:

– Müəllim, orda "damcı" suvarmadı. Əvvəlcədən xətləri elə çəkiblər ki, ağaclar normal şəkildə su ilə təmin olunur. Sadəcə, o xətlərə nəzarət edənlər var…

Doğrudan da, insan hər şeyə qadirdir.

Bu yolu ilk dəfə 1982-ci ildə getmişəm. Onda universitet tələbəsiydim və bu günə qədər də dostluğumuzu ən yüksək səviyyədə qoruyub saxladığımız, onu ailəvi dostluğa çevirdiyimiz Firudinin anasının yas mərasiminə gəlmişdim. Yollar elə bir gündəydi ki, adamın maşına yazığı gəlirdi, heyfi yox ha, yazığı. Mən öz-özümə düşünürdüm ki, dəmiryol vağzalından Kolanı kəndinə müştəri aparmaq üçün 15 rubl istəyən sürücünün, yəqin ki, ağlı yerində deyil. Çünki bu yoldakı vəziyyət ən azı 150 rubl tələb etmək haqqını verirdi sürücüyə…

Sonra ikinci dəfə gəldim bu kəndə, elə bu yolla. Onda da 1987-ci il idi, Firudinin toyuna gəlmişdim. Yollarda heç nə dəyişməmişdi. İndi isə əvvəlki yazılarımda da vurğuladığım kimi, dünyanın ən gözəl yollarından biri ilə hərəkət edirdim. Yolun sol istiqamətindəki yüksəklikdə Günəş elektrik batareyaları qurulmuşdu. Onları görəndə xatırladım ki, bir zamanlar ancaq Araz çayı üzərindəki elektrik stansiyasının ümidinə yaşayan Naxçıvan indi kifayət qədər su və Günəş elektrik stansiyalarına malikdir. Ona görə də burada işıq problemi birdəfəlik həll olunubdur. Bu da Naxçıvan rəhbərliyinin necə təsərrüfatcıl olmasından, işini mükəmməl bilməsindən xəbər verir. Axı bu bölgədə dağ çaylarından su, Günəşdən isə enerji almaq həm istəkdən, həm də bacarıqdan asılıdır. Bunu da Naxçıvanda mükəmməl bacarırlar.

Bəli, bu yol Badamlı kəndinə gedir. Biz isə həmin istiqamətə dönmürük, düz keçib gedirik. Qarşıdakı kəndlər bir-bir arxada qalır. Kükü, Kolanı, Biçənək və sair. Dolamaları qalxırıq, məni heyrətləndirən odur ki, bu yaşıllığın içində evlər, kəndlər görünmür. Həyat elə bil ki, burda bir yaşıl dona bürünüb. Amma mütləq deməliyəm, xoşuma gəlməyən bir məqam oldu. O da nədənsə, bu yaşıllığı, mənzərəni gizlətmək üçün göstərilmiş cəhdlər idi. Çünki bir-birindən yaraşıqlı, bir-birindən göz çəkən mənzərələri, evləri hündür barların arxasında sanki "gizlətmişdilər".

Ola bilsin ki, onların da öz arqumentləri var. Amma nə olur-olsun, gözəllik hamı üçün olmalıdır. Nə isə, biz dolamaları qalxdıqca yol kənarındakı bulaqların suyunun da dadına baxırıq. Həmin bulaqların qarşısındakı təpəciklərin üstünə qalxıb meşə alçasını da, itburnusunu da, böyürtkənini də qoparıram və bu fürsətdən istifadə edib artıq məndən aşağıda qalan evləri də, kəndləri də seyr edirəm. Və…

Bu da həsrətində olduğum Batabat. Sürücü mənə Üzən adanı göstərir. O artıq sahilə bir az yaxınlaşıb. Bilməyənlər üçün xatırladım ki, bu "ada" yerini anbaan dəyişir. Onu ancaq bu yerə ardıcıl gələnlər hiss edə bilər. Bu möcüzə ada daha çox torf və yaşıllıqdan ibarətdir. Göl ləpələnəndə ona öz təsirini göstərir. Gölün dibi ilə bağlılığı olmadığı üçün ada üzür.

Maşını saxladıram, düşüb bir anlıq seyr edirəm bu mənzərəni. Üzən ada başdan-başa yaşıllıq içindədir. Göl də o qədər sakitdir ki, sanki yuxuya gedibdir. Adam yatmış gözəldən gözünü çəkə bilmədiyi kimi, mən də bu mənzərədən gözümü çəkə bilmirəm. Deməli, Allah bu torpağa belə bir möcüzə də nəsib edib. Bu möcüzəyə ancaq sevgiylə, Məcnun Leyliyə baxdığı kimi baxmaq lazımdır və yaxud da əksinə. İçinin sevgisi gözlərindən, nəfəsindən duyulmalıdır. Onda sən bu yerin cənnət olduğuna inanacaqsan!..

Addım-addım gölün kənarı ilə "Zor bulağ"a yaxınlaşıram. Bulağın ətrafında ailə olduğu aydınca duyulan bir topa adam var. Uşaq, böyük, qadın… kimi su doldurur, kimi süfrə açır. Salam verirəm. Qərib olduğumuzu hiss edib bulaqdan çəkilirlər. Amma bir gəlin suyun aşağı tərəfində dayanıb, özü də düz suyun ortasında. Mən ona bir az təəccüblə baxıram. Çünki eşitdiyimə görə "Zor bulağ"ın suyunda barmağını, hətta yay fəslində də, bir dəqiqədən artıq saxlamaq mümkün deyil. Həmin gəlin isə suyun içində çox rahat şəkildə dayanıb uşaqları ilə söhbət edir…

Ovcumu suyun altına tuturam, barmaqlarım keyiyir. Suyu dodaqlarıma yaxınlaşdırıram. Canımdan bir üşütmə keçir. Yenə başımı qaldırıb həmin o gəlinə baxıram. Çox maraqlıdır, sürücü mənim bu gözaltı baxışlarımı deyəsən havada tutur. Ona görə yavaşca mənim eşidəcəyim bir səslə deyir:

– Müəllim, o gəlin bu yerin adamıdı, artıq vərdiş edib…



Bəli, məsələ aydındı. Hələ o da aydındır ki, mən "Zor bulağ"ın buz kimi suyunu dadanda ona ünvanlanan misralar da ürəyimdə göyərmişdi:

*Dolamalar qalıb artıq arxada,*
*Gəlib yetdim dodağından öpməyə.*
*Diz qatlayıb bu yamacda, yaxada,*
*Gözəlliyi gözlərimə təpməyə*
*Zor bulağın yanağından öpməyə.*

*Batabatın mənzərəsi göz çəkir,*
*Ürəyimdən qor götürür, köz çəkir.*
*Məni vallah, danışmağa söz çəkir,*
*Başlayıram nəğmələri səpməyə,*
*Zor bulağın yanağından öpməyə.*

*Su içində barmaq qatla say günü,*
*Barmaqların buz bağlayar yay günü.*
*Mən Allahdan aldığım bu pay günü,*
*Bənzər bildim ziyarəti-Kəbəyə,*
*Gəldim onu ürəyimlə öpməyə.*

*Üzən ada üzərlikdi bəlkə də,*
*Çox gözəli çoxdan qoyub kölgədə.*
*İnanın ki, gəzdiyim bu bölgədə,*
*İşıq hopub hər yazılan səhifəyə,*
*Gəldim onu ürəyimlə öpməyə.*

"Zor bulağ"ın başının üstündəki qayanın tən ortasında hündür bir ağac var. Onun əyilmiş budağından yapışıb üzüyuxarı qalxıram. Sürücü arxadan məni səsləyir:

– Müəllim, o yüksəkliyin arxası cəbhə xəttidi. Orda əsgərlərimiz mövqe tutub. Bir yanı Sisyandı, bir yanı da…

Onun dediyi söz bütün varlığımı titrətdi. Mənə elə gəldi ki, illərlə həsrətini çəkdiyim, bircə dəfə də olsun görə bilmədiyim, amma yuxularımda, xəyallarımda, anamın söhbətlərində eşidib təsəvvür etdiyim o kənd ov-



cumun içindədi. O qədər özləmişəm o kəndi, amma görmək nəsib olmayıb. Sən demə, bu yüksəkliyin arxasındaymış o kənd, o arazi, o mahal… anamın yurdu.

Həmin o həsrətini çəkdiyim ünvanın adı Dərələyəzdi. Anam orda doğulub, 1932-ci ildə. Və tale elə gətirib ki, 6-7 yaşında ilk qaçqınçılığı, ilk ermənі zülmünü yaşayıb. Sonra Qarabağ. Və 1991-ci ildən də Qarabağsız bir həyat. Ancaq həsrət yazılıb alnıma. Elə süddən gəlib mənə də. Ürəyimin döyüntüsünü yaxınlıqdakılar eşitməsinlər deyə, bir az da yuxarılara qalxıram. Hər şey gözəldi, hava da gözəldi, adamlar da... Amma əlimin uzandığı, ünümün yetmədiyi məkan… Allahım, nə qədər çəkəcək bu zülm? Yoxmu bu zülmün sonu? Özümdən asılı olmadan ucadan deyirəm sonuncu sözləri. Hiss edirəm ki, məndən aşağıda dayananlar məni izləyirlər. Qulağıma bir hökmlü səs gəlir, dönüb baxıram. Milli Ordunun zabitidi, yanında da əsgərlər, bulaqdan su götürməyə gəliblər…

Hə, həsrətini çəkdiyim yurdun nisgili ilə üzü bulağa tərəf dönürəm:

*Bu zirvədən baxıb sənə kövrəldim,*
*Havalandım, havam qaldı havada...*
*Mən yerini burdan baxıb öyrəndim –*
*Əsir alıb düşmən səni davada…*

*Gördüm enib qara bulud üstünə,*
*Dözəmmirəm, ürəyimi sən dər, əz.*
*Tüstüm barı qoy qarışsın tüstünə –*
*Ay anama beşik olan Dərələz.*

*Söz tapmıram burdan sənə deməyə,*
*Elə bil ki, mən budaqsız bir yarpaq.*
*Bir kəsim yox çağırmağa köməyə,*
*Sən çəkəndən artıq çəkir Qarabağ.*

*Bu zirvədə əl açmışam Allaha,*
*Yer səsimə, göy ünümə ayılsın.*
*Mən möcüzə istəyirəm bir daha –*
*Qələbəmiz kainata yayılsın!!*

Bəli, "Zor bulağ"ın suyundan barmaqlarım, dodaqlarım göynəyə-göynəyə yenə içirəm. Sürücünün tapıb gətirdiyi qabı da suyla doldururam. Vaxtın darlığı məni tələsməyə məcbur etsə də, nə ürəyim, nə ayaqlarım burdan getmək istəmir. Amma bütün səfərlər, bütün ziyarətlər bitir, yekunlaşır. Mənim də Batabatı, Üzən adanı, "Zor bulağ"ı ziyarətim onun suyuyla əl-üzümü yumaqla başa çatır. Amma hələlik…

**Əbülfət MƏDƏTOĞLU**
***Əməkdar jurnalist, şair, publisist***
***"Ədalət" qəzeti, 24 sentyabr 2016-cı il***

## Sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış təşkil edilib

***Sentyabrın 28-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq, Bilik Fondunun Himayəçilik Şurasının, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın açılışı olub.***





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov tədbirdə çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri sayəsində muxtar respublikamız tarixdə misligörünməmiş dərəcədə inkişaf edib və müasirləşib. Bu müddətdə qadınların məşğulluğunun təmin olunması da diqqətdə saxlanılıb, onların fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Muxtar respublikada yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır. Sevindirici haldır ki, muxtar respublika qadınları yaradılmış bütün imkanlardan istifadə edərək təhsil alır, peşə səviyyəsini artırır, ictimai-siyasi, mədəni proseslərdə iştirak edir, özəl sektorda geniş təmsil olunur, dövlət qurumlarında, o cümlədən hüquq-mühafizə orqanlarında, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində fəaliyyət göstərirlər.

Vurğulanıb ki, hazırda müxtəlif peşə sahələrində çalışan qadınların sayı ildən-ilə artmaqdadır. Öz fəaliyyətləri ilə seçilən qadınların əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir. Onlar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdlərinə, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülürlər.

Qadınların, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərin müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma kimi peşə kursları təşkil olunur və bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb olunur.

"Muxtar respublikada müxtəlif fəaliyyət sahələri ilə məşğul olan qadınlar kimi, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınlara da xüsusi diqqət göstərilir", – deyən Rəhman Məmmədov bildirib ki, bunun da nəticəsində istedadlı qadınların məşğulluğu təmin edilir, onların rifah hallarının yüksəldilməsi üçün əl işlərinin sərgi-satışı təşkil olunur. Muxtar respublikamızda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışların təşkili artıq ənənə halını alıb.

Bu gün isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına əsasən, sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların əl işlərindən ibarət növbəti sərgi-satış təşkil olunur. Bu sərgidə qadınlarımız bizim qədim xalq sənətlərimizdən olan bir çox nümunələr nümayiş etdirirlər. Sərgi-satışa muxtar respublikada yaşayan sağlamlıq imkanları məhdud 54 şəxsin 254, 227 istedadlı qadının isə 934 olmaqla, ümumilikdə, 281 qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 1188 yaradıcılıq nümunəsi çıxarılıb.

Bu sərgi-satışın milli dəyərlərimizi, adət-ənənələrimizi yaşatmaqla yanaşı, istedadlı qadınların üzə çıxmasında mühüm rol oynayacağına əminliyini bildirən Rəhman Məmmədov istedadlı qadınlara yeni yaradıcılıq nümunələri yaratmaqda uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov tədbirdə çıxış edərək bildirib ki, bu gün muxtar respublikanın bütün sakinləri kimi, xüsusi qayğıya ehtiyacı olan insanlar, o cümlədən sağlamlıq imkanları məhdud şəxslər də yüksək dövlət qayğısı ilə əhatə olunub. Məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi, cəmiyyətə inteqrasiyası, habelə asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.

Sağlamlıq imkanları məhdud şəxslərin istedad və bacarıqlarının aşkar edilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirilir. Bu məqsədlə hər il idman yarışları, bədii yaradıcılıq və bilik müsabiqələri, əl işlərindən ibarət sərgilər təşkil olunur. Sərgilərdə fərqlənən şəxslərin əl işləri respublika səviyyəli müsabiqələrdə nümayiş etdirilir.

Sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların yaradıcılıq potensiallarının dəstəklənməsi onların yaradıcılıq əzmini daha da artırır.

Nazir deyib ki, muxtar respublikada milli və xalq tətbiqi sənət növlərinin yaşadılmasına, onların təbliğinə xüsusi önəm verilir və bu sahədə müvafiq tədbirlər həyata keçirilir. Evdə xalça toxunuşu ilə bağlı sosialyönümlü ictimai işlərin, milli və xalq tətbiqi sənət növləri üzrə peşə kurslarının təşkili, əl işlərinin satışına köməklik göstərilməsi qeyd olunanların əyani ifadəsidir.

Bu gün sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsi qeyd olunan tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında sərgi-satışın əlamətdar bir gündə – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradıldığı gündə keçirildiyini vurğulayıb. Qeyd olunub ki, ümumiyyətlə, müstəqillik illərində, xüsusən də 1995-ci ildən başlayaraq muxtar respublikada həyata keçirilən dövlət-qadın siyasətinin nəticəsi olaraq qadınlarımız dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, sosial-iqtisadi, elmi və mədəni inkişafa öz töhfələrini verirlər.

Bildirib ki, 2015-ci ilin oktyabr ayında Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Muxtar respublika qadınları müstəqillik illərində" mövzusunda təşkil edilən sərgi-satışda iştirak edən Ali Məclisin Sədri belə sərgilərin hazırlanmasını yüksək dəyərləndirərək deyib: ***"Milli dəyərlərin yaşadılması sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdirilməlidir. Aid dövlət təşkilatları yaradılan şəraitdən istifadə edərək fəaliyyətlərini gücləndirməli, milli dəyərlərin əsas daşıyıcıları olan qadınlar bu işdə yaxından iştirak etməlidirlər. Hər bir kəndə, rayona xas olan milli dəyərlər muxtar respublikanın, muxtar respublikada toplanan milli dəyərlər isə, ümumilikdə, Azərbaycan xalqının milli dəyərlər sisteminə daxildir. Ona görə də bu cür sərgilər Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində də təşkil olunmalı, istedadlı qadınların fəaliyyətinə dəstək verilməlidir".***

Vurğulanıb ki, verilən tapşırığa uyğun olaraq cari ilin ötən dövründə muxtar respublikanın rayon mərkəzlərində bu səpkidə sərgilər keçirilib. Hər bir rayona məxsus adət-ənənələrin əl işlərində əksini tapması, ailə-məişət tərzlərinin, məxsusi xalçaların, bəzək nümunələrinin, gündəlik məişətdə istifadə olunan əşyaların sərgiyə çıxarılması sərgi-satışları bir-birindən fərqləndirib. Ümumilikdə, sərgi-satışlarda 385 istedadlı qadının 2907 rəsm və əl işi satışa çıxarılıb, 175 qadının 4489 manat dəyərində 383 rəsm və əl işi satılıb. Ümumiyyətlə, cari ildə keçirilən sərgi-satışlarda 259 istedadlı qadının 6625 manat dəyərində 709 rəsm və əl işi satılıb. Bu gün keçirilən sərgi-satışda isə muxtar respublikada yaşayan 227 istedadlı qadının 169 muncuqla, 8 kağızla, 37 daş üzərində oyma, 55 toxunma, 18 taxta üzərində dekorativ iş, 383 toxunma iş, 38 yağlı boya, 61 tikmə, 100 toxunma, 33 muncuqla, 6 vitrajtipli tablo, 26 xalça olmaqla, ümumilikdə, 934 rəsm və əl işi nümayiş etdirilib.

Sonra sərgiyə baxış olub. Qeyd edək ki, sərgi-satış 10 gün davam edəcək.

✍ **Hafizə ƏLİYEVA**

## *"Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik"* başlığı altında internet aksiyası keçirilmişdir

*Muxtar respublikada turizmin inkişafı diqqət mərkəzində saxlanılır. Naxçıvanın zəngin turizm potensialının təbliği və tanıdılması istiqamətində ardıcıl tədbirlər görülür, müasir turizm infrastrukturu yaradılır. Bu il Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublikanın turizm potensialını təbliğ edən elektron resursların internetdə yerləşdirilməsi, internet səhifələrində Naxçıvanın turizm potensialı ilə bağlı bölmələrin yaradılması və gənclərin bu sahədə fəallığının artırılması barədə aid təşkilatlara konkret tapşırıqlar verilmişdir.*

Müşavirədə verilən tapşırıqların icrası diqqətdə saxlanılmış, 27 sentyabr – Ümumdünya Turizm Günü münasibətilə "Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik" başlığı altında internet aksiyası keçirilmişdir. Bununla bağlı Naxçıvan haqqında 1000-ə yaxın foto və 152 tanıtım videosu hazırlanaraq və 280-dən çox saytın siyahısı tərtib edilərək Gənclər Fonduna, Gənclər və İdman Nazirliyinə, Naxçıvan Dövlət Televiziyasına, "Şərq qapısı" qəzetinə, Azərbaycan Dövlət İnformasiya Agentliyinin Naxçıvan bürosuna və "Naxcivanxeberleri.com" informasiya saytına paylaşmaq üçün təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi üzrə aksiyada 500 nəfərdən çox adam iştirak etmiş, 17 mindən çox paylaşım, 110 mindən çox bəyənmə sayı qeydə alınmışdır. Naxçıvan Turizm İnformasiya Mərkəzinin saytında 1491 izlənmə olmuş, 170 müxtəlif sayta foto və videomateriallar göndərilmiş, mərkəzin sosial şəbəkələrdəki səhifələrində 25 mindən çox bəyənmə, 210 mindən artıq baxış sayı qeydə alınmışdır. Gənclər Fondunun sosial şəbəkələrdəki səhifələrində 22 minə yaxın baxış sayı, 580 bəyənmə və 362 paylaşım olmuşdur. Gənclər və İdman Nazirliyi tərəfindən paylaşılan materiallara isə 400 mindən çox baxış olmuşdur. Naxçıvan Dövlət Televiziyası tərəfindən paylaşılan materiallara 83 min 209 baxış, "Şərq qapısı" qəzetinin sosial şəbəkələrdəki səhifələrində və internet saytında paylaşılan materiallara isə 15 minə yaxın baxış olmuşdur. "Naxcivanxeberleri.com" informasiya saytı tərəfindən 103 xəbər agentliyinin saytına və 50 digər qrupa göndərilmiş materiallar 35 saytda dərc olunmuşdur.

Aksiyada ali təhsil müəssisələri də fəal iştirak etmişdir. Belə ki, Naxçıvan Dövlət Universiteti üzrə aksiyada 310 tələbə iştirak etmişdir. Tələbələr sosial şəbəkələrdə 3900-ə yaxın foto və video paylaşmış, 7000-ə yaxın bəyənmə sayı qeydə alınmışdır. "Naxçıvan" Universitetindən isə 210 tələbə aksiyada iştirak etmiş, sosial şəbəkələrdə 3600-dən çox foto və video paylaşılmış, 15 min 153 bəyənmə sayı qeydə alınmışdır.

Ümumilikdə, "Ümumdünya Turizm Günü. Naxçıvanı təqdim edirik" başlığı altında keçirilən internet aksiyasında Naxçıvanın tanıtımı ilə bağlı 273 sayta məlumat göndərilmiş, 36 saytda material dərc edilmiş, sosial şəbəkələrdə 45 mindən çox paylaşım, 210 mindən çox bəyənmə və 700 minə yaxın baxış sayı qeydə alınmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

***1 oktyabr – Beynəlxalq Ahıllar Günü münasibətilə sentyabrın 28-də muxtar respublikanın ən uzunömürlü sakini, 118 yaşlı Şərur rayon sakini Qönçə Hümbətova ilə görüş keçirilib.***

## Muxtar respublikanın ən uzunömürlü sakini ilə görüş olub

Qönçə Hümbətova 1898-ci ildə Qərbi Azərbaycanın Vedi rayonunun Qədirli kəndində anadan olub. 1905-ci ildə ermənilərin Qədirli kəndini işğal etməsindən sonra o, anası ilə birlikdə Naxçıvana gələrək burada məskunlaşıb.

Görüşdə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Şərur Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları bildiriblər ki, muxtar respublikamızda uzunömürlü insanların sosial vəziyyətinin yaxşılaşdırılması dövlətimizin əsas qayğılarındandır. Onlara müxtəlif sosial xidmətlər göstərilir, sağlamlıqları qayğısına qalınır, maddi cəhətdən tələbatlarının ödənilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Mütəmadi olaraq onlara evlərində baş çəkilir, yaşayışları ilə maraqlanılır, zəruri sosial problemləri yerində həll olunur.

Qönçə Hümbətova ona göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Sonda muxtar respublikanın ən yaşlı sakininə hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 723